*qoyub qayıtdıq".* Elə ondan sonra da Qarabağ xanlığı Azərbaycanın şimalındakı bütün xanlıqların şahlığına çevrilmişdi.



Ən dəhşətlisi odur ki, o qalanı Pənah xanın yadıcaları dağıtdılar və ən nəhayət, sonunda da o qalanın yerində pambıq əkdilər.

Bayatda hələ də o qalanın olduğu əraziyə Qalaça deyirlər. Mən bu barədə "Batmanqılınc" romanımda ətraflı yazmışam. Və romanı niyə yazdığımı da girişdə qeyd eləmişəm. Romanın giriş hissəsini bugünkü nömrəmizdə oxuya bilərsiniz.

Nə isə. İki il bundan əvvəl Qarabağ xanlığının 270 illiyi ilə əlaqədar "Gəl, ay Pənah xan, gorun çatlasın..." yazdığım harayı da bugünkü saytımızda və 4-cü günkü qəzetimizdə oxuya bilərsiniz.

**Canım, ay Hökumət! Canım, ay Tarix İnstitutu! Canım, ay Mədəniyyət Nazirliyi! ŞUŞANIN 270 İLLİYİ-Dİ!**

# "BATMANQILINC"

### *MÜƏLLİFDƏN*

**Bayat adlı bir kənddə doğulmuşam. Bütün ulu babalarım da o kənddə doğulub və məzarları da kəndin qəbiristanlığındadı. Həmin qəbiristanlığın iki minmi, üç minmi yaşı var - dəqiq bilənlər oranın artıq torpağa çevrilmiş ilk sakinləridi.**

Kəndimizdə bir qala vardı. Pənah xanın qalası deyərdilər. Və biz uşaqlıqda o qala divarlarının üs-tündə dava-




dava oynayardıq. Bir gün əmilər həmin qalanı sökdülər, özü də elə təmiz, elə gözəl sökdülər ki, indi heç bir arxeoloq haçansa bu yerlərdə qala olduğunu sübut eləyə bilməz.

Qala söküləndə hamı tamaşasına yığılmışdı. Mən də nənəmin ətəyindən yapışıb baxırdım. Bir də gördüm ki, Əsmət nənəm göz yaşları içərisində qalanı sökənləri lənətləyir:

***- Bu qalanı niyə sökürsüz, ay bala? Onu sizin babalar tikmişdi axı? Onların ruhundan qorxun. Bu qala Qacara can verməyən qalaydı! Ay sizin əliniz qurusun!***

Qacara can verməyən qalanın canını Pənah xanın öz yadıcıları (nəvələri yox, nəticələri yox, kö-tücələri yox, iticələri yox, yadıcıları - məhz yadıcıları) elə gözəl aldılar ki!

Biz uşaq idik, o qalanı kim tikmişdi və niyə tikmişdi - vecimizə deyildi, bizə dava-dava oynamağa bir yer lazım idi və biz də dava-dava oynamağa başqa bir yer də tapdıq.

Amma Əsmət nənəm ki, hərdən gedərdi o qalanı dolaşardı, üzünü daşlara sürtüb ağı deyərdi, daha üzünü sürtməyə yer tap-madı. Və günlərin birində nənəm elə o qalanı sökənlərə qarğış tökə-tökə də bu qalanı sökənlərin dünyasından köçdü getdi o qalanı tikənlərin dünyasına.

***Böyüdükcə qalanın xarabalıqları doğmalaşırdı və günlərin birində qəflətən mənə elə gəldi ki, o qalanı mən tikmişdim.***

Hər şey yadıma düşür, amma qırıq-qırıq. Qalanın tikintisi də, həmin qalanın bürcündən Hacı Çələ-binin qoşununa ox atmağım da, Pənah xan da, İbrahim xan da, Məmməd bəy Cavanşir Batmanqı-lınc da! Hamısı düşür yadıma, Qacarın ucsuz-bucaqsız qoşunu da! Atların dəli kişnərtiləri qula-ğımdadı. Kəndimizin üstündə Məmməd bəy Batmanqılıncla Qacarın son və qəti döyüşünü də xa-tırlayıram. Mən həmin döyüşdə atın altında qalmışdım, qılınc sağ çiynimi parçalamışdı, buğlana-buğlana axan qanımın ətrindən yavaş-yavaş uyuyurdum. Hamısı düşür yadıma - amma qırıq-qırıq, təkcə harda öldüyümdən savayı. Bir qızıl ox uçurdu mənə sarı -o da yadımdadı, sonrası yadımda deyil. Bir də o yadımdadı ki, sinəmə nə isə dəydi. Nə?! Bilmirəm. Amma ağrısını indi də hiss elə-yirəm.

***Bir gün özümə söz verdim ki, yadıma düşənləri yazım, nə qədər çalışdım,bir muncuq boyu düzə bilmədim. Bu nə tarixdi, nə də nağıl! Yadıma düşənlərdi. Necə yadıma düşürdüsə - qırıq-qırıq, eləcə də yazdım - qırıq-qırıq.***

Özüm tikdiyim qalanı, özüm qoruyub saxlaya bilmədim, hətta özüm uçurtdum.

Heç olmasa mənimlə çiyin-çiyinə o qalanı tikənlərin, çataq-çataq bağlanıb diri-diri Qacarın atlıları-nın ayağı altına döşədilmiş və üstlərindən minlərlə at keçdikdən sonra torpağa qarışmış qardaşları-mın, başı nizəyə keçirilmiş Vəli ağanın, xaincəsinə qıyma-qıyma doğranmış Məmməd bəy Cavan-şir Batmanqılıncın və daha kimlərin adlarını yaşatmaq istədim. Bəlkə, kim bilir, onda qalanı tikən mən, qalanı sökən məni bağışladı.

**Bəlkə, hansı nəsildəsə, kötücələrin övladları ulu babalarına oğul oldular - yadıca yox!**



*Aqil ABBAS*